# TUSİ TƏQAÜD PROQRAMI

## Mirvari Beynəlxalq Fondu



Mirvari Beynəlxalq Fondu **Tusi Təqaüd Proqramını** elan etməkdən məmnunluq duyur. *Proqramın məqsədi icma xidmətləri və könüllülük əvəzinə aztəminatlı ailələrdən olan gənclərin universitet təhsilini dəstəkləmək, yardım etməkdir.* Azərbaycanın səlahiyyətli universitetlərindən birinə yeni qəbul olunmuş məhdud iqtisadi resurslara malik gənclər və ya tələbələr müraciət etmək hüququna malikdirlər. Təqaüd üçün müraciət edənlər əvvəlki təhsil göstəricilərinə, maliyyə vəziyyətlərinə və icmalarına töhvə vermək potensialına əsasən seçiləcəkdir.

*Təqaüd alanlardan icmalarının inkişafına kömək edə biləcək layihələr təklif və icra etməyi gözlənilir.* İcma layihələrinə yuxarı sinif şagirdlərinə pulsuz hazırlıq kursları/dərslərin keçirilməsi, kitab klubunun, xarici dil danışıq qruplarının yaradılması, idmanla bağlı və buna bənzər digər layihələr daxildir və yalnız sadalananlarla məhdudlaşmır. İcma layihələrində müraciət edənlər öz icmalarındakı məktəb və ya digər təsisatlarla əməkdaşlıq etməyə həvəsləndirilir.

Hər qalib 1000 manat (təxminən1200 ABŞ dolları) məbləğində təqaüdlə mükafatlandırılacaq. Təqaüddən yalnız təhsil haqqı, kitablar və ya kompyuterin alınması və gündəlik xərclər kimi universitetlə bağlı olan xərcləri ödəmək üçün istifadə olunmalıdır.

**Tələblər:**
Aşağıda sadalanan meyarlara uyğun gələnlər müracitə edə bilərlər:

- Namizədlər Azərbaycan vətəndaşı olmalıdır
- Namizədlər Azərbaycanın dövlət və ya özəl universitelərinə qəbul olunmalıdırlar

**Aşağıda sadalanan meyarlardan birinə və ya bir neçəsinə uyğun gələn namizədlərə üstünlük veriləcək:**

- Akademik üstünlük ( qiymətləri 4 və ya 4-dən yuxarı olanlar)
- Regionlarda yaşayanlar
- Aztəminatlı ailələrdən olanlar
- Bir və ya hər iki valideynini itirmiş və ya əlilliyi olanlar
- Təbiət və ya texniki elmlər üzrə ( riyaziyyat, fizika, mühəndislik, komputer elmləri, və bu kimi sahələr) və ya incəsənət üzrə təhsil alanlar (musiqi və ya rəssamlıq)

**Sənədlər:**

- Şəxsiyyət vəsiqəsinin surəti
- Dövlət Qəbulu İmtahanının nəticələri (yeni qəbul olanlar üçün)
- Tələbənin universitetdəki statusunu təsdiq edən sənəd
- Akademik transkript  qiymətlərlə birgə ( universitet tələbələri üçün)
- Namizədin təşkilatı, liderlik bacarıqlarını və könüllülük fəaliyyətini əks etdirən müffəssəl CV
- Seçilən sahə üzrə universitet diplomu almaq istəmə səbəbini, bunun Sizin karyeranızı necə yüksəldəcəyini və bu təqüdün məhz Sizə verilmə səbəbni təsvir edən 1 səhifəlik esse (inşa)
- İcma/könüllülük layihələri üçün 2 səhifəlik müfəssəl layihə təklifi (spesifik fəaliyyətlər, hədəf qrupları, gözlənilən nəticələr, təchizatların təşkili)
- Namizədin elmi bilik və bacarığını, liderlik qabiliyyətini və inkişaf potensilanı təsvir edən universitet və ya məktəb müəllimlərindən 2 zəmanət məktubu
- Akademik nəailiyyətlərin əlavə dəlili (regional və ya milli olimpiyadalar və ya yarışlar, mükafatlar və s)
- Mümkün olduğu təqdirdə maliyyə ehtiyacınız olduğunu sübüt edən sənəd (valideynin itirilməsi/ölümü və ya əlil olması, və ya işsiz olmasını sübüt edən sənəd)

**Seçim meyarları**

- Dövlət qəbulu imtahanın nəticəsi (tolanılan bal)
- Maliyyə ehtiyacının sübutu
- Məqsədləri və icra mexanizmləri aydın təsvir edilən maraqlı və həyata keçirilməsi mümkün olan icma layihəsi
- Gələcək karyeranın inkişafı ilə bağlı proqnoz

Ərizələr Azərbaycan, Rus və ya İngilis dillində təqdim edilə bilər. Yardımçı sənədlərlə birgə tam ərizə paketi ilə müraciət etmək üçün son tarix **30 noyabr 2010-cu ildir**. Gecikmiş ərizələrə bu il baxılmayacaq. Yalnız yarımfinalçılar müsahibəyə çağrılacaq.

Yardımçı sənədlərlə birgə tam ərizə paketi info@mirvari.org elektron ünvanına göndərilməlidir. Əlavə suallar yarnarsa, bizimlə info@mirvari.org ünvanı ilə əlaqə saxlaya bilərsiniz. İcma layihələri ilə bağlı ilkin ideyalar da həmçinin, e-mail vasitəsilə də müzakirə edilə bilər.

---

Mirvari Beynəlxalq Fondu  Nyu-York, ABŞ-da qeydiyyatdan keçən qeyri-kommersiya xeyriyyə təşkilatıdır. Mirvari Beynəlxalq Fondunun missiyası Azərbaycanda təcrid olunmuş, az təminatlı və az imtiyazlı uşaq və gənclərin həyat səviyyəsini yaxşılaşdırmağı məqsəd tutan təhsil və səhiyyə layihələrini dəstəkləməkdir. Təşkilat tamamilə fərdi ianələr hesabına dəstəklənir və könüllülər tərəfindən idarə olunur.

**Mirvari International Foundation**
P.O. Box 250754 New York, 10025 USA
www.mirvari.org